





# Paşinyanın əlləri yenə də gəncəlilərin qanına batdı

## *Şəhər sakinləri erməni işğalçılarının bu terror hərəkətinin cəzalandırılacağına əmindirlər*











Xəbər verildiyi kimi, Ermənistan silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın ikinci böyük şəhəri Gəncəni ağır raketdən atəşə tutmuşdur. Nəticədə 4-ü qadın olmaqla 10 nəfər həlak olmuş, 16 qadın və 6 azyaşlı uşaq olmaqla 34 nəfər yaralanmışdır. Atəş nəticəsində 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.

Bu barbarlığın bütün dünyanın gözü qarşısında baş verməsinə baxmayaraq, Ermənistan xarici KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayəti pərdələməyə, əməllərindən boyun qaçırmağa cəhdlər göstərir. Lakin hadisə yerindən yerli və xarici medianın yaydığı foto və videogörüntülər bu yalanları birmənalı şəkildə ifşa edir. Həmçinin hadisə baş verən gün Baş Prokurorluq tərəfindən zərərçəkmiş şəxslərin və ziyan dəymiş obyektlərin siyahısının dəqiqləşdirilməsi işləri aparılmaqla istintaq əməliyyat tədbirləri həyata keçirilir.

Gəncəlilər erməni barbarlarının bu cinayət əməllərini birmənalı qarşılamır, baş vermiş hadisəni düşmənin növbəti terror əməli kimi qiymətləndirirlər. Onlar ermənilərin törətdikləri sonuncu cinayəti də suda boğulanın saman çöpündən yapışması kimi dəyərləndirirlər. Odur ki, erməni işğalçılarının Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşkünlüyü yaratmamışdır. Törədilən terror aktının itkisiz ötüşməməsinə baxmayaraq, şəhər sakinləri mətinlik nümayiş etdirirlər.

Raketin düşdüyü ərazidə yaşayan İbrahim Novruzov deyir ki, belə ağır silahdan atəşə tutulacağımızı təsəvvür etməzdik: “Ən azından cəmi bir neçə saat idi ki, humanitar atəşkəs haqqında müqavilə imzalanmışdı. Odur ki, təhlükəsiz yerlərdən çıxıb öz evimizdə gecələməyi qərara almışdıq. Erməni hiyləgərliyi bu dəfə də özünü büruzə verdi. Ermənistanın baş naziri Paşinyan mülki əhalini raket atəşinə tutmaqla növbəti dəfə əllərini gəncəlilərin qanına batırdı”.

Azərbaycan üzərinə götürdüyü bütün siyası, hüquqi öhdəliklərə dəqiqliklə əməl edən bir dövlətdir. Ermənistan isə növbəti dəfə beynəlxalq hüquq və normalara arxa çevirdi və öz vəhşi, barbar hərəkəti ilə sübut etdi ki, o, məkrli niyyətindən, işğalçı siyasətindən əl çəkməyib. Amma bu vaxt unudub ki, Azərbaycan Ordusunun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti sayəsində xalqımızda yaranan qələbə əzmini məhv etmək mümkün deyil. Əksinə, düşmənin belə vəhşiliyi onlara qarşı nifrəti artırır və bununla həm də zəfər gününü yaxınlaşdırır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***